

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.
Heydər ƏLİYEV


# Azərbaycan işıqları

“Azərenerji” ASC-nin orqanı

24 DEKABR 2015-ci il
CÜMƏ AXŞAMI

№ 50 (1125)

www.azerenerji.gov.az


*“Azərbaycan cəmi 24 il müstəqillik dövründə böyük zirvələrə çata bildiyini göstərib. İdmançılarımızın uğurlu çıxışları bizi xüsusilə sevindirir. 50 olimpiya komandası arasında Azərbaycan idmançıları ikinci yerə layiq görülüblər. Birinci Avropa Oyunlarında idmançılarımız 56 medal qazanıblar, bunlardan 21-i qızıldır. Bu, Azərbaycan idmanının böyük zəfəri idi”.*

**İlham ƏLİYEV,
Azərbaycan
Respublikasının Prezidenti**

## RƏSMİ XRONİKA

**19 dekabr**

- ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə İsveçrə Konfederasiyasının Bern şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüş keçirilib. Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bern şəhərində İsveçrə Federal hökumətinin üzvü, Xarici İşlər Departamentinin rəhbəri Didye Burkhalterlə görüşüb.
- Prezident İlham Əliyev Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun bir qrup əməkdaşına Azərbaycan Respublikasının fəxri adlarının verilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun bir qrup əməkdaşının «Tərəqqi» medalı ilə təltif edilsməsi barədə sərəncam verib.

**21 dekabr**

- Prezident İlham Əliyev Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşlarını institutun 80 illik yubileyi münasibətilə təbrik edib, hər birinə uğurlar arzulayıb.
- Prezident İlham Əliyev Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə Dadaş Qərib oğlu Rzayevin “Şöhrət” ordeni ilə təltif edilməsi barədə sərəncəm imzalayıb.
- Prezident İlham Əliyev «Bələdiyyələrin əraziləri və torpaqları haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş «Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı»nda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1408-IVQD nömrəli Qanununun qüvvəyə minməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Natiq Rəsul oğlu Rəsulzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev «Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə on milyon manat ayrılması barədə sərəncam verib.
- Prezident İlham Əliyev Azərbaycanda estrada musiqisinin inkişafında xidmətlərinə görə Cavanşir Mirzəməmməd oğlu Zeynallıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev 2014/2015-ci tədris ilində keçirilmiş «Ən yaxşı ümumi təhsil müəssisəsi» müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə bir qrup ümumi təhsil müəssisəsinə on min manat məbləğində birdəfəlik pul mükafatı verilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev 2014/2015-ci tədris ilində keçirilmiş «Ən yaxşı müəllim» müsabiqəsində müvəffəqiyyət qazandıqlarına görə bir qrup müəllimə beş min manat məbləğində birdəfəlik pul mükafatı verilməsi haqqında sərəncam imzalayıb.

**22 dekabr**

- Prezident İlham Əliyev Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin rəsmi qarşılanma mərasimində iştirak edib.
- Prezident İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olub. Görüşdə ikitərəfli münasibətlərin siyasi sahədə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğu vurğulanıb, əlaqələrin möhkəmləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olunub.
- Prezident İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə geniş tərkibdə görüşü keçirilib. Prezidentlər görüşdə çıxış ediblər.
- Prezident İlham Əliyevin və Prezident Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub.
- Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.
- Prezident İlham Əliyevin adından Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin şərəfinə rəsmi nahar verilib.
- Prezident İlham Əliyev Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə, Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxsə «Əməkdar mədəniyyət işçisi» fəxri adının verilməsi barədə sərəncam verib.
- Prezident İlham Əliyev Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə və Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxsin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

# Prezident İlham Əliyev 2015-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib






♦ **Dekabrın 23-də Milli Olimpiya Komitəsində 2015-ci ilə yekun vurulub, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Mərasim iştirakçıları Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

Prezident İlham Əliyev idmançılarla görüşlərin artıq ənənəyə çevrildiyini, ildən-ilə idman uğurlarımızın artdığını, idmançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr qazandığını bildirdi. Qeyd etdi ki, 2015-ci ildə Azərbaycan atletləri beynəlxalq yarışlarda 823 medal qazanıblar ki, onların da 321-i qızıl medallardır. İdmançılara dövlət tərəfindən göstərilən qayğının da yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev onların sosial problemlərinin həlli istiqamətində hər il tədbirlərin görüldüyünü, bu prosesin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırdı. Artıq Azərbaycanın dünyada idman dövləti kimi tanındığını deyən Prezident İlham Əliyev bu faktın beynəlxalq idman qurumlarının rəhbərləri tərəfindən də təsdiqləndiyini vurğuladı. Ölkədə yeni idman bazalarının yaradıldığını, təlim-məşq prosesinin və federasiyaların işinin yaxşı təşkil olunduğunu qeyd edən Prezident İlham Əliyev hazırda Azərbaycanda 41 Olimpiya-İdman Kompleksinin olduğunu, 10-nun isə tikildiyini bildirdi. Paytaxtımızda da güclü idman infrastrukturunun yaradıldığını söyləyən dövlətimizin başçısı bu il Avropanın idman tarixində ilk dəfə baş tutan birinci Avropa Oyunlarından danışaraq idmançılarımızın qazandığı uğurları qeyd etdi.

Gələn il Bakının dünyada çox nüfuzlu “Formula-1” yarışlarına, Dünya Şahmat Olimpiadasına ev sahibliyi edəcəyini deyən Prezident İlham Əliyev vurğuladı ki, 2017-ci ildə İslam Həmrəylik Oyunları da ölkəmizdə keçiriləcək.

2015-ci ilin yekunlarından danışarkən dövlətimizin başçısı vurğuladı ki, dünyada siyasi və iqtisadi gərginliyin davam etməsinə baxmayaraq, ölkəmiz inkişaf edir. Lakin neftin qiymətinin aşağı düşməsi Azərbaycanın gəlirlərinin, büdcə xərclərinin azalmasına, milli valyutanın məzənnəsinə də təsir edib.

Dövlətimizin başçısı hökumətin qarşısında makroiqtisadi sabitliyin təmin edilməsi, inflyasiyanın minimal səviyyədə olması, ölkədə istehsal olunan ərzaq məhsullarının və tikinti materiallarının, yanacağın qiymətlərinin sabit saxlanması ilə bağlı vəzifələrin qoyulduğunu diqqətə çatdırdı.

Prezident İlham Əliyev idmançılarımıza 2016-cı ildə, xüsusilə də qarşıdan gələn növbəti Yay Olimpiya Oyunlarında yeni qələbələr arzuladı.

Sonra 2015-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Oqtay Abdullayevə, Nizami Babayevə, Balahəsən Eynullayevə, Tofiq Əliyevə, Faiq Həsənova, Oqtay Məmmədova “Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi” fəxri adlarının döş nişanlarını təqdim etdi.

Respublikamızda idmanın inkişafında xidmətlərinə görə Kamal Kebirlinskiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənəd təqdim olundu.

Azərbaycanda qeyri-Olimpiya idman növlərinin inkişafında xüsusi xidmətlərinə görə Nizami Məmmədov, İlkin Səfərov, Eldar Məmmədov, Qadir Babayev Milli Olimpiya Komitəsinin prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2015-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və Prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi, dövlətimizin başçısına fəaliyyətində uğurlar arzuladı.

**TƏBRİK MƏKTUBLARI**

## *Vladimir Putin:* “İlham Əliyev Rusiya-Azərbaycan əməkdaşlığının möhkəmlənməsinə böyük şəxsi töhfə verir”

♦ **Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi ad günü münasibəti ilə təbrik edib.**

“Trend”in məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli İlham Heydər oğlu,

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Sizin rəhbərliyiniz ilə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, regional və beynəlxalq gündəlikdəki mühüm məsələlərin həllində fəal rol oynayır.

Siz bizim ölkənin əsl dostu kimi, müxtəlif sahələrdə qarşılıqlı faydalı Rusiya-Azərbaycan əməkdaşlığının möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Ümidvaram ki, Sizinlə yoldaşcasına ünsiyyətimiz və ölkələrimizin qardaş xalqlarının rifahı naminə sıx birgə işimiz davam edəcək.

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, uğurlar diləyir, ən xoş arzularımı bildirirəm".

## Dövlət və hökumət başçıları Prezident İlham Əliyevi təbrik ediblər

♦ **Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ad günü münasibəti ilə təbrik edib.**

Trend-in məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli İlham Heydər oğlu,

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Qardaş Azərbaycanın həyatının bütün sahələrində qazanılan və haqlı olaraq Sizin ali dövləti fəaliyyətinizlə bağlı sayılan uğurlar dost ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə çatdırılması üçün geniş imkanlar yaradır. Qarşılıqlı faydalı Tacikistan-Azərbaycan münasibətlərinin daha da genişləndirilməsi ölkələrimizin və xalqlarımızın rifahı və firavanlığı naminə mənim də can atdığım məqsəddir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bu xoş gündə Sizə səmimi qəlbdən möhkəm cansağlığı, ailənizə firavanlıq, bütün təşəbbüslərinizdə uğurlar diləyim".

***

♦ **Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ad günü münasibətilə təbrik edib.**

Təbrikdə deyilir:

"Hörmətli İlham Heydər oğlu,

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Rusiyada Sizi dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əməkdaşlığının bütün kompleksinin genişlənməsinin ardıcıl tərəfdarı kimi tanıyırlar. Şəxsən Sizin köməyinizlə energetika, sənaye, infrastruktur sahələrində iri müştərək layihələr həyata keçirilir, ölkələrimizin ictimai strukturları və biznes birlikləri xətti üzrə intensiv dialoq aparılır.

Sizinlə çoxsaylı görüşlərimizi səmimiyyətlə xatırlayıram. Maraqlı və etimada əsaslanan ünsiyyətimizi davam etdirməyə şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm".

**FAKT... HADİSƏ... XƏBƏR...**

## İstehlak bazarında baş verən dəyişikliklər diqqətlə təhlil edilir

♦ **İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti istehlak bazarında məzənnə dəyişikliyi ilə bağlı olmayan qiymət artımı, süni mal qıtlığı və digər sui-istifadə hallarının qarşısının alınması üçün nəzarət tədbirlərini gücləndirib.**

İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Xidməti istehlak bazarında baş verən dəyişiklikləri diqqətlə təhlil edir və manatın məzənnəsinin dəyişməsindən sui-istifadə hallarına rast gəlindiyi təqdirdə qanunvericiliyə uyğun tədbirlər görüləcək.

Qeyd edək ki, Mərkəzi Bank dekabrın 21-də manatın idarəolunan üzən məzənnə rejiminə keçirilməsi barədə qərar qəbul edib.

## Azərbaycan ilə Rusiya arasında hərbi sahədə 2016-cı il üçün əməkdaşlıq planı imzalanıb

♦ **Moskvada səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov dekabrın 23-də Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqu ilə görüşüb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə regional təhlükəsizliyin aktual məsələləri, həmçinin Rusiya ilə Azərbaycan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Müdafiə nazirləri hərbi sahədə 2016-cı il üçün əməkdaşlıq planını imzalayıblar.

**BU NÖMRƏDƏ**




Azərbaycan İrana elektrik enerjisini ixrac edəcək 3





Lisenziyalar ləğv edildi 4


## ABŞ Dövlət Departamenti Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat verib

♦ **Dekabrın 21-də ABŞ Dövlət Departamentinin nümayəndəsi Con Kerbi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesi barədə bəyanat verib. O, ötən həftə Berndə Ermənistan və Azərbaycan prezidentlərinin görüşündən danışaraq qeyd edib ki, Sammit prezidentlərə il ərzində ilk dəfə üzbəüz görüşmək və mövqeləri aydınlaşdırmaq imkanı yaradıb.**

C.Kerbi deyib ki, prezidentlər münaqişə zonasında vəziyyətin pisləşməsi faktını etiraf edib və dinc əhali arasında itkilərə dair narahatlıq bildiriblər. Prezidentlərin xahişinə əsasən Minsk qrupunun həmsədrləri güc işlədilməsinə yenidən başlanması riskinin azaldılması istiqamətində təkliflər üzərində işi davam etdirəcəklər. Həmsədrlər, həmçinin gələn il münaqişənin tənzimlənməsi istiqamətində müzakirələrin davam etdirilməsi üçün prezidentlərin yeni görüşünün keçirilməsini dəstəkləməyə hazır olduqlarını bildiriblər. ABŞ Dövlət Departamentinin nümayəndəsi deyib: “Birləşmiş Ştatlar həmsədr ölkə kimi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesində vasitəçiliyə sadiqliyini saxlayır”.

C.Kerbi əlavə edib ki, ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri güc işlədilməsinə yenidən başlanması riskinin azaldılması istiqamətində bütün tədbirlərin rusiyalı və fransalı həmkarları ilə müzakirəsini davam etdirir. O, münaqişə zonasında gərginliyin azaldılması metodlarından danışaraq, bu işdə xüsusilə Dağlıq Qarabağ regionunun nəsillikcə bir yerdə yaşamış erməni və azərbaycanlı icmalarının nümayəndələri arasında xalq diplomatiyasının mühüm rolunu qeyd edib. ABŞ-da inanırlar ki, sülhün yaranması üçün hər iki icma yenidən bir-birinə etibar etməyi bacaracaq. ABŞ regionda sülh və təhlükəsizlik naminə tərəflərin qəbul edə biləcəyi və müvafiq olaraq icra edəcəyi təkliflərin verilməsini istəyir.

Xatırladaq ki, Azərbaycanın Dağlıq Qarabağ regionu və yeddi ətraf rayon Ermənistan silahlı qüvvələri tərəfindən 1992-1994-cü illərdə işğal edilib. Ermənistanın işğalçı siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpaqlarından didərgin düşüb. 1993-cü ilin aprel-noyabr aylarında BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən, erməni silahlı qüvvələrinin bu ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün şərait yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Məclisində beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə edilmiş mövqeyini bir daha təsdiqləyən 62/243 nömrəli qətnamə qəbul olunub. Müxtəlif ölkələrin və beynəlxalq təşkilatların qanunverici orqanları BMT Təhlükəsizlik Şurasının bu qətnamələrini əsas götürərək, erməni işğalçı qüvvələrinin Azərbaycandan çıxarılmasını tələb edən sənədlər qəbul ediblər.

# *Əli Həsənov:* “İndiki mərhələdə əsas məqsəd devalvasiyanın qaçılmaz olan mənfi fəsadlarını yeni bazar mexanizmləri ilə kompensasiya etməkdir”



**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi ƏLİ HƏSƏNOVUN AZƏRTAC-a müsahibəsi**

***- Əli müəllim, məlum olduğu kimi, dünən Mərkəzi Bankın İdarə Heyəti ölkə ərazisində manatın “üzən məzənnə rejimi”nə keçilməsi barədə qərar qəbul edib. Bununla bağlı cəmiyyətdə müxtəlif rəylər və təhlillər səslənir. Sizcə həmin qərar hansı zərurətdən irəli gəlib və ölkədə bu sahə üzrə sonrakı proseslərə necə təsir göstərəcək?***

- Bildiyiniz kimi, Azərbaycan hakimiyyəti milli valyutamızın sabit qalması üçün dünənə qədər mümkün olan bütün addımları atdı və tədbirləri gördü. Baxmayaraq ki, neft istehsal edən əksər ölkələr, o cümlədən Azərbaycanın yaxın ticarət və iqtisadi tərəfdaşları, MDB ölkələri öz pul siyasətlərinə xeyli əvvəl dəyişiklik etmişdilər. Mütəxəssislər yaxşı bilirlər ki, valyutanın sabitliyinin müdaxilə yolu ilə qorunması dövlətə nə qədər çətin itkilər hesabına başa gəlir. Lakin o da bəllidir ki, “üzən məzənnə”yə keçid də cəmiyyət üçün itkisiz başa gəlmir və özü ilə bir çox sosial-iqtisadi problemlər gətirir, dövlətin daxili həyatına, ictimai rəyə mənfi təsirsiz ötüşmür. Son günlər Azərbaycanda hamıya bəlli idi ki, “üzən məzənnə”yə keçid prosesi qaçılmaz həddə çatıb və Mərkəzi Bank bununla hesablaşmaq məcburiyyətindədir. Bilirsiniz ki, neçə vaxtdır dünyada iqtisadi böhran yaşanır, ölkələrin əksəriyyətində milli istehsal və gəlirlər azalır, valyutalar dəyərini itirir. İqtisadi qüdrətindən və potensialından asılı olmayaraq, əksər ölkələrdə, - dünyanın ən qüdrətli dövlətlərindən olan Çindən tutmuş, kiçik dövlətlərə qədər, – bütün ölkələrdə milli valyuta sürətlə dəyərdən düşür. Bizim ən yaxın ticarət tərəfdaşlarımız – Rusiya, Türkiyə, İran, Qazaxıstan, Gürcüstan və digərlərinin milli valyutaları çoxdan sərbəst buraxılmışdı ki, bu da onlar ilə iqtisadi və ticarət əlaqələrimizə problemlər yaradırdı.

Azərbaycanın daxili istehsalı manatın sabit və yüksək məzənnəsi səbəbindən getdikcə aşağı düşürdü. Belə bir vəziyyətdə manatın məzənnəsinin sərbəstləşdirilməsi qaçılmaz idi. Yalnız Azərbaycan hakimiyyəti əhalinin sosial vəziyyətinə mənfi təsir göstərə biləcək prosesləri mümkün qədər ağrısız etməyə və ləngitməyə çalışırdı. Amma, bilirsiniz ki, ölkəmiz qlobal dünyanın bir hissəsidir və biz də planetimizdə yaşanan iqtisadi proseslərlə ayaqlaşmaq, buna uyğunlaşmaq məcburiyyətində qaldıq.

Bir faktı da qeyd etmək istəyirəm ki, Azərbaycan neft ölkəsidir və bizim kimi ölkələr dövlət büdcəsinin əsas gəlir mənbəyi olan neftin kəskin ucuzlaşması amilini nəzərə almaya bilməz. Bu ilin əvvəlindən dünya bazarlarında neft və neft məhsullarının qiyməti 3 dəfə ucuzlaşıb. Bu hal müvafiq olaraq, Azərbaycanın neft gəlirlərinin də 3 dəfə azalması deməkdir. Əsas gəlir mənbəyi neft olan digər ölkələr, o cümlədən bizim yaxın qonşularımız artıq bu ilin əvvəlindən milli valyutalarının məzənnəsini sərbəst buraxmaq məcburiyyətində qaldığı halda, Azərbaycan Mərkəzi Bankı bu kəsiri uzun müddət öz ehtiyatları hesabına ödəməyə çalışdı. Lakin bu prosesi daim valyuta ehtiyatları hesabına tənzimləmək gələcəkdə ölkənin iqtisadi vəziyyətinə daha böyük zərbələr vura bilərdi. Çünki dünya bazarlarında neftin qiymətlərinin yaxın vaxtlarda bahalaşmayacağı hamıya aydındır. Təbii ki, bu, yalnız obyektiv bazar qanunları ilə bağlı proses deyil, ortada subyektiv səbəblər də var və bunun ən başlıcası ABŞ-Rusiya münasibətləridir. Hadisələri izləyən hər kəs üçün aydındır ki, Rusiya ilə geosiyasi rəqabətin gücləndiyi bir şəraitdə Birləşmiş Ştatlar öz rəqibini iqtisadi cəhətdən zəiflətmək üçün dünya bazarında neftin qiymətlərinə süni yolla təsir göstərmək siyasətini seçib. Bunun üçün Vaşinqton əvvəlcə OPEK-i nəzarətə götürdü və bu təşkilatın qiymətlərlə bağlı qərar qəbul etmək imkanını müxtəlif üsullarla məhdudlaşdırdı. Bunun ardınca Birləşmiş Ştatlar xaricə neft satışına qoyulmuş 40 illik qadağanı ləğv etdi. Nümayəndələr Palatasının bu qadağanın ləğvi barədə qanun layihəsini dəstəkləməsi dünya bazarlarında neftin sürətlə ucuzlaşması fonunda baş verirdi. Bu qərarı da iqtisadiyyat qanunları ilə izah etmək mümkün deyil. Çünki ABŞ-ın neft satışına qiymətin rekord həddə yüksək - az qala 150 dollar olduğu zaman deyil, rekord həddə ucuz – 37 dollar olan zaman başlaması sübut edir ki, məqsəd, qanun layihəsində göstərildiyi kimi, “iqtisadi inkişaf və istehsalatın artmasından çox, qiymətlərin bu yolla tənzimlənməsindən” ibarətdir. Nəhayət, neft satışına qoyulan qadağanın ləğvi ilə eyni vaxtda ABŞ Federal Ehtiyat Sisteminin uçot dərəcəsini artırması da dolların mövqeyini möhkəmləndirməklə yanaşı, digər ölkələrin valyutalarını zəiflətdi. Bu, onsuz da ucuzlaşmış nefti bir qədər də qiymətdən saldı və nəticədə neft satan ölkələrin gəliri daha da azaldı. Azərbaycanın qonşusu olan İranın da gələn ildən öz neftini dünya bazarına çıxarmağa hazırlaşdığını nəzərə alsaq, bu prosesin yaxın vaxtlarda nizama düşməsi çox mürəkkəb görünür.

Bir sözlə, dünyadakı iqtisadi böhran, Azərbaycanın ən yaxın ticarət tərəfdaşlarının milli valyutalarının sərbəst buraxılması, üstəlik beynəlxalq konyuktura, neftin kəskin ucuzlaşması və s. Mərkəzi Bankın son qərarını qaçılmaz edib. Lakin bu, o demək deyil ki, hakimiyyət bu prosesi öz axarına buraxıb heç bir tənzimləyici mexanizmlərdən istifadə etməyəcək. Hökumətimiz ilk növbədə, çalışacaq ki, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar üçün bu prosesi maksimum ağrısız etsin. İndiki şəraitdə daxili istehsalın stimullaşdırılması, kölgə iqtisadiyyatının hələ də haradasa qalan digər sahələrini – monopoliyaları, korrupsiya hallarını, sahibkarların fəaliyyətinə süni maneələr törədilməsini və s. aradan tam qaldırmaq üçün bütün addımlar atılacaq. İndiki mərhələdə əsas məqsəd devalvasiyanın qaçılmaz olan mənfi fəsadlarını yeni bazar mexanizmləri ilə kompensasiya etməkdir. Vətəndaşlarımız əmin olsunlar ki, Azərbaycan hakimiyyəti bunun üçün bütün lazımi tədbirləri görəcəkdir.

***- Bu yaxınlarda ABŞ-ın Helsinki Komissiyasının sədri, konqresmen Kris Smit Konqresə Azərbaycana qarşı bəzi sanksiyaların tətbiq olunması ilə bağlı layihə təqdim edib. Bu təşəbbüsü necə qiymətləndirirsiniz və onun perspektivini necə görürsünüz?***

- Bilirsiniz, Azərbaycan belə məsələlərə yanaşmada ayrı-ayrı ermənipərəst siyasətçilərin deyil, tərəfdaş olduğu dövlətlərin rəsmi mövqeyini əsas götürür və siyasətini də bu mövqeyə uyğun olaraq qurur. Kris Smitin bu qərəzli addımı isə hələ ABŞ rəsmilərinin və Ağ Evin mövqeyi demək deyil. Bu konqresmeni Azərbaycanda yaxşı tanıyırlar, onun hələ 2000-ci illərdən mütəmadi olaraq ermənipərəst bəyanatlar və təşəbbüslərlə çıxış etdiyini, hər vəchlə Azərbaycanın ABŞ ilə münasibətlərinə kölgə salmağa çalışdığını, özünü Konqresdə seçildiyi Nyu-Cersinin deyil, sanki Ermənistanın Abovyan vilayətinin təmsilçisi kimi apardığını çox yaxşı bilirik. Kris Smit ABŞ-ın qondarma “erməni soyqırımı”nın tanıması üçün canfəşanlıq edən çoxsaylı ermənipərəst konqresmenlərdən biridir. Elə bu il ərzində o, bir neçə dəfə “soyqırımı”nın tanınması zərurəti ilə bağlı bəyanat verib, hətta ABŞ Prezidentinə müvafiq yalvarış-müraciət də imzalayıb. Bir sözlə, bu adamın reputasiyasına münasibətim necədirsə, onun hazırladığı layihəyə də eynilə o cürdür. Əsas odur ki, indiyədək rəsmi Vaşinqton K.Smitin nə “erməni soyqırımı”, nə də Azərbaycana qarşı hər hansı təşəbbüslərinə əhəmiyyət verməyib. Odur ki, bu məsələni ciddiyə almaq lazım deyil. Ümid edirik ki, Smitin budəfəki hərəkəti də ABŞ rəsmiləri tərəfindən rədd ediləcək və bu layihə ermənipərəst qüvvələrin həyata keçməyən növbəti arzularından biri olaraq tarixə düşəcək. Əslində, Smit xarakterli siyasətçilər hər bir ölkədə var. Azərbaycanda da ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinə ermənipərəst mövqedən yanaşdığını, ölkəmizə qarşı bəzən qərəzli mövqedən çıxış etdiyini, erməni diasporu və lobbisinin təsiri altına düşdüyünü düşünən insanlar var. Onlar da Azərbaycan hakimiyyətindən ABŞ ilə strateji tərəfdaşlığa son qoyulmasını, ölkəmizə qarşı qərəzli yanaşmalara adekvat cavab verilməsini tələb edirlər. Lakin qeyd etdiyim kimi, biz bütün digər ölkələrlə əlaqələrdə olduğu kimi, ABŞ ilə də münasibətlərin inkişafında maraqlıyıq, ayrı-ayrı çağırışların ikitərəfli münasibətlərə xələl gətirməsinə imkan vermirik.

Amma təbii ki, ABŞ rəsmi şəkildə bu qərəzli layihəyə dəstək verərsə, ermənipərəst qüvvələrin “oyunu”na gedərsə, o zaman Azərbaycan hakimiyyəti buna lazımi reaksiya verəcək. Buna heç kəsin şübhəsi olmasın.

## *“Narodnaya qazeta”:* “Heydər Əliyev Azərbaycan xalqının fəxridir”

♦ **Düşənbədə rus dilində nəşr olunan “Narodnaya qazeta”da “Heydər Əliyev Azərbaycan xalqının fəxridir” sərlövhəli geniş məqalə dərc edilib.**

AZƏRTAC-ın məlumatına görə, məqalədə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı söhbət açılır. Heydər Əliyevin həm keçmiş SSRİ dövründə, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycanın sürətlə inkişafı, onun əsasını qoyduğu və bu gün uğurla həyata keçirilən daxili və xarici siyasət haqqında geniş məlumat verilir.

Məqalədə Heydər Əliyev şəxsiyyətinin xüsusiyyətləri oxucuların diqqətinə çatdırılır. Qeyd olunur ki, ulu öndər Heydər Əliyev hadisələrin gedişini düzgün analiz edə bilən, qarşıya qoyduğu məqsədlərə doğru inamla və qətiyyətlə addımlayan, əlçatmaz zirvələri fəth edən praqmatik və xarizmatik şəxsiyyət olub.

Məqalədə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illərdə ölkədə və xaricdə həyata keçirdiyi mühüm layihələrdən də bəhs edilir. Bundan başqa, Azərbaycanın Tacikistandakı səfirliyində Ümummilli Liderin anım günü ilə bağlı tədbirin keçirildiyi diqqətə çatdırılır, səfir Abbasəli Həsənovun çıxışından fikirlər yer alır.

BƏYANAT

## *Azərbaycan Müdafiə Nazirliyi:* Ermənistan Ordusu nə qədər atəşkəsi pozacaqsa, daha çox cavab zərbələri endiriləcək

♦ **Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, Ermənistan Ordusu nə qədər atəşkəsi pozmağa davam edəcəksə, nə qədər yaşayış məntəqələrimizi, dinc sakinləri atəşə tutacaqsa ona daha çox və daha iriçaplı üstün silahlarla cavab zərbələri endiriləcək.**



“Trend”in məlumatına görə, bunu Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsrun Ovanisyanın çıxışına cavabında Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib.

V.Dərgahlı bildirib ki, hazırda Azərbaycan Silahlı Qüvvələri öz qüvvəsinin və arsenalındakı silahların çox cüzi bir hissəsindən istifadə edir: “Silahlı Qüvvələrimizin sərəncamındakı silahların dağıdıcı gücü, tətbiq dərinliyi, dəqiqliyi bundan dəfələrlə artıqdır. Erməni tərəfi də bunu yaxşı bilir. Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, ehtiyac yaranarsa, Silahlı Qüvvələrimizin sərəncamındakı digər silahlar da düşmənə qarşı tətbiq olunacaq. O silahlar istifadə olunduğu zaman ermənilərin itkisi onların bu gün ağlına gələ bilməyəcəyi qədər, düşündüklərindən də artıq olacaq. Bunu onlar anlamalıdırlar”.

Nazirlik rəsmisi bəyan edib ki, buna görə də ermənilər gənclərini, erməni millətinin gələcəyini qorumaq istəyirlərsə, işğal altında saxladıqları Azərbaycan ərazilərini birdəfəlik tərk etməlidirlər.

V.Dərgahlı qeyd edib ki, bu gün cəbhədə gərginliyi süni şəkildə yaradan, dövlət sərhədində, qoşunların təmas xəttində işğal olunmuş ərazilərdən Azərbaycan kəndlərini, dinc əhalini atəşə tutan Ermənistan Ordusudur. Hər il onlarla dinc sakin Ermənistan hərbçilərinin açdığı atəş nəticəsində yaralanır, həlak olur. Bu faktlar beynəlxalq təşkilatlara, o cümlədən ATƏT-ə də məlumdur: "Əgər düşmən hesab edirsə ki, biz buna biganə qalacaq, cavab verməyəcəyik çox yanılır. Biz Azərbaycan Ordusu olaraq qarşı tərəfdə dinc əhaliyə maksimum şəkildə toxunmamağa çalışırıq. Hətta, xatırlatmaq yerinə düşər ki, bir neçə ay əvvəl ermənilərin işğal etdikləri Ağdərə ərazisindəki Talış və Madagis kəndlərinin sakinləri xarici KİV-ə müsahibələrində özləri də etiraf eləmişdilər ki, Azərbaycan Ordusu istəsə bizi vura bilər. Amma bunu etmir. Sadə ermənilər Ermənistandakı cinayətkar hərbi rejimin uydurduğu yalanları bu açıqlamaları ilə ifşa etdilər”.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibinin ötən gün yerli KİV-lərdə yayılan və guya Azərbaycan Silahlı Qüvvələrinin il ərzində cəbhədə 215 əsgər itirməsi açıqlamasına da toxunan V.Dərgahlı bunu Artsrun Ovanisyanın “yuxusu” adlandırıb: “Ovanisyanın bu bəyanatı öz müdafiə nazirinin hərəkətləri qədər çox məsuliyyətsiz, heç bir əndazəyə sığmayandır. Onlar öz sayıqlamalarını mətbuat vasitəsi ilə ictimaiyyətə sırımaqda, itkilərini gizlətməkdə ustadırlar. Bu sahədə böyük təcrübələri var. Bizdə olan məlumata görə Ermənistan tərəfi öz itkilərinin sayını gizlədir. İtkiləri o qədər çoxdur ki, onları açıqlamaqdan çəkinirlər. Odur ki, Azərbaycan tərəfinin itkiləri barədə şişirdilmiş, yalan, təxribat dolu xəbərlər yaymaqla erməni ictimaiyyətini qismən də olsa sakitləşdirmək istəyirlər.

Azərbaycan Müdafiə Nazirliyi cəbhədəki hər bir şəhid, yaralanan hərbçi haqda informasiyanı mütəmadi olaraq ictimaiyyətə açıqlayır. Şəhidimizin qanı isə artıqlaması ilə alınır. Azərbaycan ictimaiyyəti əmin olmalıdır ki, torpaqlarımz işğaldan azad edilənədək ordumuz düşmənə qarşı tədbirlərini davam etdirəcək. İşğal altında olduğu hər gün Azərbaycan torpaqlarından Ermənistana əsgər tabutları gedəcəkdir”.

DÖVLƏT NƏZARƏTİ

## Dövlət Xidməti: “Süni qiymət artımına yol verənlər barəsində müvafiq tədbirlər görüləcək”

♦ **Azərbaycanda dolların məzənnəsinin artmasından sonra süni qiymət artımının olmaması üçün bir sıra tədbirlər həyata keçirilir. “Trend”in məlumatına görə, bunu İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi Zahid İsayev ANS-ə müsahibəsində deyib.**



Z.İsayev bildirib ki, məhsulların qiymətlərində baş verən artımların vaxtında qeydə alınması, süni qiymət artımlarının, bazarda mal qıtlığının yaradılmasının vaxtında aşkar olunması üçün tədbirlər görülür.

Z.İsayevin sözlərinə görə, bu gün süni qiymət artımı cəhdləri demək olar ki, yox səviyyəsindədir: “Çünki Dövlət Xidmətinin hələ fevral ayında baş verən devalivasiya zamanı süni qiymət artımının qarşısını almaq üçün həyata keçirdiyi tədbirlər və iş metodu süni qiymət artımının baş verə bilmək ehtimalını bəri başdan aşkar etməyə imkan verir və bizim müdaxiləmiz nəticəsində süni qiymət artımının qarşısı demək olar ki, baş verməmiş alınır”.

Z.İsayev deyib ki, manatın məzənnəsnin dəyişməsi istehlak bazarında satılan məhsulların qiymətlərinə müxtəlif cür təsir göstərə bilər: “Burada artım satılan malların maya dəyərində xarici valyutada formalaşan xərclərin xüsusi çəkisindən asılı olaraq çox da ola bilər, az da ola bilər. İdxal olunan malların həm alışı, həm də onların ölkəyə gətirilməsi ilə bağlı nəqliyyat xərcləri tam həcmdə xarici valyutada ödənilir. Ona görə də idxal olunan malların maya dəyərində xarici valyutada formalaşan xərclərin xüsusi çəkisi xeyli yüksəkdir”.

Azərbaycanda istehsal olunan ərzaq məhsullarında qiymət artımı məsələsinə gəlincə isə Z.İsayev bildrib ki, sahibkarlar öz biznesini inkişaf etdirmək üçün nələrisə daxili bazardan əldə etməlidir: “Buna görə də o sahibkarların da satış həcmləri artmalıdır ki, onar da həmin tələbatları ödəyə bilsin. Ona görə o da həmin mallarınının qiymətlərində müyyən artımın olacağı gözləniləndir”.

Siqaretin qiymətində artım məsələsinə münasibət bildirən Z.İsayev qeyd edib ki, maya dəyərində xarici valyutada formalaşan xərclərin xüsusi çəkisinə uyğun artım baş verəcək: “Amma o qiymət artımlarının əsaslı olub-olmaması araşdırılacaq. Əgər qiymət artımı əsaslı olmazsa, süni qiymət artımına yol verən təsərrüfat subyektləri barəsində müvafiq tədbirlər görüləcək”.

Dərmanların qiymətində artım məsələsinə gəlincə isə Z.İsayev bildirib ki, dərmanların qiymtələrinin tənzimlənməsi ilə bağlı ölkə prezidentinin tapşırığı ilə Tarif Şurası tərəfindən xeyli işlər görülüb: “İndiyə qədər 3540 dərmanın qiyməti təsdiq olunub və həmin dərmanlar ölkədə bütün apteklərdə eyni qiymətə satılır. Azərbaycanda satılan dərmanlar idxal olunur və ona görə də dərmanların qiymətlərində qiymət artımı Tarif Şurası tərəfindən həyata keçiriləcək. Bildyiniz kimi dərmanların qiymətləri tənzimlənən zaman 2, 3 5 dəfə, bəzi dərmanların qiyməti isə 10 dəfə aşağı salınıb. Buna görə də dərmanların qiymətləri məzənnə dəyişikliyi ilə bağlı artırılarkən belə yenə də əvvəlki qiymətlərindən dəfələrlə aşağı olacaq”.

ELMİ NƏŞRLƏR

## “Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri” jurnalının növbəti nömrəsi çapdan çıxıb

♦ **“Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri” beynəlxalq elmi-texniki jurnalının növbəti buraxılışı (Cild 7. № 4) işıq üzü görüb.**

AZƏRTAC xəbər verir ki, nəşrin yeni nömrəsi Azərbaycan Mühəndislik Akademiyasının 10 illik yubileyinə həsr olunmuş məqalə ilə açılır. Məqalənin müəllifi – Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik Arif Paşayev elm ocağının fəaliyyəti, akademiya üzvlərinin qlobal enerji layihələrində iştirakı, ölkəmizin elm, texnologiya və innovasiya potensialının inkişafına verdiyi töhfələrdən bəhs edir. Qeyd olunur ki, Azərbaycan Mühəndislik Akademiyasının əsas fəaliyyət istiqamətləri mühəndislik elmi sahəsində intellektual potensialın artırılmasına, perspektivli innovasiya proqramlarının işlənib hazırlanması və həyata keçirilməsinə kömək göstərilməsinə, elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən prinsipcə yeni texnika, texnologiya və material növlərinin yaradılmasına və tətbiqinə yönəlib.

Oxucuların diqqətinə çatdırılır ki, akademiyanın elmi-texniki, texnoloji və layihə işləri son illər istehsalatda uğurla tətbiq olunur. Akademiya üzvləri hazırda TANAP layihəsinin işlənməsində və reallaşdırılmasında yaxından iştirak edirlər. SOCAR-ın struktur bölmələri ilə həm kəşfiyyat və hasilat, həm də nəql, emal, marketinq və servis xidmətləri bazasında innovasiya texnologiyaları sahəsində sıx əməkdaşlıq qurulub. Mühəndislik Akademiyası “Azərkosmos” ASC-də idarəetmə və təbii resursların istismarı, operativ peyk informasiya qəbulu sahəsində məsələlərin həlli, fotoqrammetrik və geoinformasiya layihələrinin yerinə yetirilməsində, sifarişlərin bazası əsasında alqoritmlər və aviakosmik məlumatların emalı metodikasının tətbiqi üçün innovasiya texnologiyalarının işlənilməsi, konsaltinq aparılması və kadr hazırlığına nail olmaq istiqamətində müvafiq iş aparmağı nəzərdə tutur. Öz fəaliyyətində ilk növbədə insan resurslarına əsaslanan Azərbaycan Mühəndislik Akademiyasında “Təhsil-Texnopark” kompleksinin tikintisi başa çatmaq üzrədir. Əsas məqsədi ölkə iqtisadiyyatının inkişafını sənaye innovasiya istiqamətinə yönəltməkdən ibarət olan bu kompleksin kadr potensialını Milli Aviasiya Akademiyası və ölkənin digər aparıcı ali məktəbləri təmin edəcək.



Akademiyanın prezidenti Arif Paşayev rəhbərlik etdiyi elm ocağının xarici əlaqələrindən də söhbət açır. Bildirir ki, Azərbaycan Mühəndislik Akademiyası bir çox milli və beynəlxalq akademiyalarla səmərəli əlaqələr qurmağa çalışır, xüsusilə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Sloveniya mühəndislik akademiyaları, Beynəlxalq Mühəndislik Akademiyası ilə sıx əməkdaşlıq edir.

Jurnalın bu nömrəsində Beynəlxalq və Rusiya Mühəndislik Akademiyalarının prezidenti, akademik B.V.Qusevin, Qazaxıstan Milli Mühəndislik Akademiyasının prezidenti, akademik B.Jumaqulovun, Sloveniya Mühəndislik Akademiyasının prezidenti İ.Emrinin, eləcə də AZƏRTAC-ın Baş direktoru A.Aslanovun əlamətdar yubiley münasibətilə təbrikləri də yer alıb. Təbrik məktublarında akademiyanın Azərbaycanda mühəndislik elminin inkişafını sürətləndirən mərkəzə çevrildiyi, texnikanın və qabaqcıl texnologiyaların inkişafına verdiyi əvəzsiz töhfələr, akademik Arif Paşayevin bu sahədəki xidmətləri minnətdarlıq hissi ilə vurğulanır.

Nəşrdə möhkəmlik fizikası, aviasiya, mexanika və maşınqayırma, neft və qaz, neft-kimya texnologiyası, informasiya texnologiyaları ilə bağlı bir sıra elmi məqalələr dərc olunub.

Xatırladaq ki, “Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri” ayrıca elektron formatda, müasir dünya standartlarından istifadə etməklə məqalələrin xülasələrini ingilis dilində yayır, həmçinin xarici analitik baza olan SCOPUS-a keçid və onun vasitəsi ilə indeksləşmə və sitatlaşdırmanı həyata keçirir. Jurnalda məqalələr Azərbaycan, ingilis və rus dillərində dərc edilir.

## Bakı avtovağzalı yanvarın 5-dək gücləndirilmiş iş rejimində çalışacaq

♦ **Bakı Beynəlxalq Avtovağzal Kompleksi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar yanvarın 5-dək gücləndirilmiş iş rejimində çalışacaq.**

Bu barədə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin növbə rəisi Məhəmməd Abdullayev AZƏRTAC-a deyib.

Onun sözlərinə görə, artıq gücləndirilmiş iş rejiminə keçilib. Adi günlərdə 300-350 nəqliyyat vasitəsilə 7500-8500 sərnişin daşınırdısa bayram ərəfəsində 650-700 nəqliyyat vasitəsilə 16-17 min sərnişinin yola salınması nəzərdə tutulub.

M.Abdullayev qeyd edib ki, ən çox sıxlıq dekabrın 28-dən 31-nə kimi müşahidə olunur: “Sərnişinlərə biletləri 10 gün əvvəlcədən alınması tövsiyə olunur. Sıxlığın ən çox müşahidə olunacağı dövrlərdə bilet satışında problemin olmaması üçün sərnişinlər online vasitəsi ilə də biletləri ala bilərlər”.



TARİXİ UNUTMAYAQ!

## Bakıda Qarabağ mövzusunda yeni filmlərin təqdimatı olub

♦ **“Virtual Qarabağ” İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin Gənclər və İdman Nazirliyinin dəstəyi ilə istehsal etdiyi “Ağdam - virtual səyahət” 3D qrafik təsvirli, “Qarabağ atı” animasiya filmlərinin, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birgə əməkdaşlıq çərçivəsində hazırlanan “Qarabağın dövlət əhəmiyyətli tarixi abidələrinin elektron xəritəsi”nin dekabrın 23-də təqdimat mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, layihənin əlaqələndiricisi, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri Nurəddin Mehdiyev çıxış edərək filmlər barədə ətraflı məlumat verib. Bildirilib ki, əsas məqsəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmaq, işğal altındakı ərazilərimizin füsunkar təbiəti, tarixi və maddi-mədəniyyət abidələri haqqında gənclərimizi məlumatlandırmaqdır. Elektron məhsulların hazırlanmasında məqsəd ölkəmizlə bağlı həqiqətlərin Ermənistanın elmi dairələri və erməni diasporu tərəfindən saxtalaşdırılmasının qarşısını almaq, əsl reallıqları, tarixi faktları dünya ictimaiyyətinə çatdırmaqdır.

Layihənin əhəmiyyətini yüksək qiymətləndirən gənclər və idman naziri Azad Rəhimov mərkəzin 2013-cü ildən təqdim etdiyi elektron məhsulların əhəmiyyətini qeyd edib. Bildirib ki, mərkəzin qarşısında daha mühüm layihələrin icrası durur. Ölkə gənclərinin maarifləndirilməsi və Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda tanıdılması istiqamətində bu məhsullar çox mühüm rol oynayır. Son dövrdə dünyada baş verən dəyişikliklər və yaranan yeni çağırışlar belə filmlərin hazırlanmasının əhəmiyyətini daha da artırır. Ölkə gənclərinin fəallığının artırılmasının başlıca məqsədlərdən olduğunu vurğulayan nazir onların məlumatlandırılmasında və inkişafında belə layihələrin vacibliyini xüsusi qeyd edib.

Sonra “Qarabağ atı” animasiya filmi təqdim olunub. Xalq Şairi Bəxtiyar Vahabzadənin eyni adlı şeiri əsasında çəkilən “Qarabağ atı” animasiya filmi gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə töhfə vermək, onların Qarabağ haqqında biliklərini artırmaq məqsədini daşıyır.

Azərbaycan və ingilis dillərində hazırlanan “Ağdam – virtual səyahət” 3D qrafik təsvirli film də tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Ağdamın tarixi abidələrinin, meydan və küçələrinin qrafik təsvirlə canlandırıldığı filmdə tamaşaçı virtual səyahətə çıxır.

“Qarabağın dövlət əhəmiyyətli tarixi abidələrinin elektron xəritəsi” layihəsinin həyata keçirilməsinə əsas səbəb interaktiv xəritə üzərində Qarabağda mövcud olan abidələrin GPS koordinatları ilə birlikdə pasportlaşdırılması, həmin abidələrin Azərbaycana məxsusluğunun nümayiş etdirilməsi, bu barədə gənclərin məlumatlılığının artırılmasıdır.

# Təbrizdə İran-Azərbaycan biznes forumu keçirilib





**♦ İqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin rəhbərlik etdiyi rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyətinin İran İslam Respublikasına səfəri çərçivəsində Təbriz şəhərində İran-Azərbaycan biznes forumu keçirilib. Tədbir İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və İranın müvafiq qurumlarının təşkilatçılığı ilə baş tutub.**

İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, sənaye, kənd təsərrüfatı, tikinti, qida sənayesi, maliyyə, konsaltinq, turizm və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox iş adamı iştirak edib.

Biznes forumda çıxış edən iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu, dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın inkişafında xüsusi əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, Azərbaycan nümayəndə heyətinin İran İslam Respublikasına səfəri çərçivəsində Dövlət Komissiyasının iclası, İran-Azərbaycan biznes forumları və bir sıra ikitərəfli görüşlər keçirilib, energetika, nəqliyyat və digər sahələrdə mühüm razılıqlar əldə edilib. Şimal-Cənub nəqliyyat dəhlizi, Biləsuvar və Astara sərhəd-keçid məntəqələrinin 24 saat fasiləsiz iş rejiminə keçirilməsi sahəsində işlərin intensivləşdirilməsi barədə razılıqlar ölkələrimizin tranzit potensialından daha səmərəli istifadə olunmasına imkan yaradacaq. Nazir Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2015-ci il tarixli "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncamının Azərbaycan dəmir yollarının İran dəmir yolları şəbəkəsi ilə əlaqələndirilməsi və bu sahədə görülən işlərin sürətləndirilməsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb. İş adamlarını fəal əməkdaşlığa dəvət edən nazir Şahin Mustafayev sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər sahələrdə əlaqələrin genişləndirilməsinə dair fikirlərini bildirib. Vurğulanıb ki, Azərbaycanın Qazaxıstanın Aktau şəhərindəki logistik mərkəzindən İran tərəfi də istifadə edə bilər. Azərbaycanda yaradılmaqda olan sənaye parklarında və aqroparklarda İran investorlarının fəaliyyəti üçün əlverişli imkanlar mövcuddur.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi çıxışında son zamanlar ölkələrimiz arasında əlaqələrin daha da intensivləşdiyini, bir çox məsələlərdə qarşılıqlı razılıqların əldə olunduğunu qeyd edib, iqtisadiyyatın müxtəlif sahələrində, həmçinin iş adamları arasında əməkdaşlığın inkişafına dair fikirlərini bildirib. Mahmud Vaezi Azərbaycan iş adamlarını İrana investisiya qoymağa dəvət edib.

İranın Şərqi Azərbaycan vilayətinin valisi İsmayıl Cabbarzadə İran İslam Respublikasının Şərqi Azərbaycan vilayəti ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi imkanlarını diqqətə çatdırıb.

Biznes forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər təşkil olunub.

Məlumat üçün bildirək ki, dekabrın 21-də Tehran şəhərində də İran-Azərbaycan biznes forumu keçirilib.

## Azərbaycan İrana elektrik enerjisini ixrac edəcək

**♦ Azərbaycan 2016-cı ildən İrana elektrik enerjisinin ixracına başlayacaq. Bunu "Trend"ə eksklüziv olaraq Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyindən bildiriblər.**

Məlumata görə, bu haqda razılıq Tehranda keçmiş iqtisadi, ticarət və humanitar əməkdaşlıq üzrə Azərbaycan-İran hökumətlərarası komissiyasının iclasının gedişatında əldə olunub.

"Trend"in məlumatına görə, tərəflər ixracat qiymətlərini də müəyyən ediblər.

Həmçinin komissiyanın gedişatında İran-Azərbaycan-Rusiya və İran-Azərbaycan-Gürcüstan marşrutları üzrə enerji mübadiləsi məsələsinə də baxılıb.

# Şəbəkə xüsusi diqqət mərkəzindədir

**♦ İstehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi məqsədilə yarımstansiyalarda, ötürücü qurğularda əsaslı və cari təmir işlərinin yerinə yetirilməsi, itkilərin azaldılması energetklərin ən mühüm vəzifələrindən biridir. Digər enerji obyektlərində olduğu kimi "Gəncə Regional Elektrik Şəbəkəsi"nin (REŞ) də xidməti ərazilərində bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Ən əsası isə respublika enerjisistemi üçün strateji əhəmiyyətə malik sistem təşkiledici şəbəkə xüsusi diqqət mərkəzindədir.**

"Azərenerji" ASC-nin Elektrik Enerjisinin Ötürülməsi İdarəsindən Səhmdar Cəmiyyətin Mətbuat xidmətinə cari ilin son üç ayı ərzində sözügedən REŞ-in balans mənsubiyyətinə aid olan enerji obyektlərində həyata keçirilmiş yenidənqurma və təmir işləri ilə bağlı daxil olan məlumata görə, 330 kV-lik "Ağstafa" yarımstansiyasında 125 MVA-lıq 1 saylı avtotransformator əsaslı, 110 kV-lik 1-ci və 2-ci şin sisteminin gərginlik transformatorları isə cari təmir edilib. Eyni zamanda 500 kV-lik "Samux" yarımstansiyasında 330 kV-lik 3-cü "Şəmkir" hava xəttinin (HX) 1-ci şin sistemində şin ayrıcısı, gərginlik transformatoru, 4-cü "Mingəçevir" hava xəttində 2-ci şin sistemində şin ayrıcısı, 1-ci "Samux" HX-də isə eleqaz açarı, cərəyan transformatoru və xətt ayrıcısı təmir olunub.

Məlumata görə, sözügedən dövrdə 110 kV-lik "Gəncə-2" yarımstansiyasında həyata keçirilmiş yenidənqurma işləri çərçivəsində 10 ədəd eleqaz açarı və 9 dəst cərəyan transformatoru, 11 ədəd HX-nin mühafizə panelləri quraşdırılıb. Eyni zamanda 110 kV-lik 2-ci şin sistemində şin ayrıcısı, 1-ci və 2-ci şin sistemində gərginlik transformatoru və boşaldıcılar, 1-ci və 2-ci "Alabaşlı" HX-nin ayrıcılarına intiqalllar və yarımstansiyanın idarəetmə şitinə isə cabit cərəyan paneli quraşdirilib. Bütün bunlarla yanaşı, 25 MVA transformatorların giriş açarlarının kabelləri yenilənib və 0,4 kV-lik 1-ci və 2-ci bölmə şinləri ayrı otağa köçürülüb.

Qeyd edək ki, sözügedən dövrdə 330 kV-lik "Gəncə", "GAZ", 110 kV-lik "Gəncə-1" və "Zəyəm" yarımstansiyalarında, o cümlədən elektrik avadanlıqlarında da müxtəlif təyinatlı təmir işləri həyata keçirilib.

Digər təmir işlərinə gəldikdə isə, məlumata görə, sözügedən dövrdə yüksək gərginlikli elektrik verilişi hava xətlərində (EVHX) cari ilin son üç ayı ərzində metal dayaqlarda qaynaqdan qopmuş hissələr qaynaq olunaraq bərpa edilib, müxtəlif markalı naqil və izolyatorlar yenisi ilə əvəzlənib. Bununla yanaşı, həmin dövr ərzində hava xətlərinin trassası ağaclardan təmizlənib və bu işlər mütəmadi olaraq davam etdirilir.

## Hövsan Aerasiya Stansiyasında bioenerji stansiyası quraşdırılacaq

**♦ Hövsan Aerasiya Stansiyasında çirkab sularının təmizlənməsi nəticəsində yığılan tullantılardan enerji alınması üçün Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABOEMDA) tərəfindən bioenerji stansiyasının quraşdırılması layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.**

50 meqavat gücündə olacaq stansiya vasitəsilə Türkan və Hövsan qəsəbələri istilik və elektrik enerjisi ilə təmin ediləcək.

Bu barədə AZƏRTAC-a ABOEMDA-dan məlumat verilib. Bildirilib ki, layihənin həyata keçirilməsində məqsəd çirkab sularının təmizlənməsi, zəhərli qazların və tullantıların utilizasiyası və enerjinin alınmasıdır. Stansiyanın işləməsi həmçinin, il ərzində 93,8 milyon kubmetr təbii qaza qənaət etməyə də imkan verəcək.

**ENERGETİKA MƏNZƏRƏLƏRİ**



**DÜNYADAN SORAQLAR**

*RUSİYA*

## 250 meqavat gücündə külək parkı tikiləcək

**♦ Ulyanovskda, «Zavoljye» sənaye parkının ərazisində ümumi gücü 250 meqavat olan külək parkının tikintisi planlaşdırılır. Külək elektrik stansiyasının birinci hissəsi (ümumi gücü 25 meqavat olan 10 külək turbini) 2017-ci ildə işləməyə başlayacaq.**

Külək energetikası texnologiyalarının tətbiqi sahəsində əməkdaşlıq barədə niyyət memorandumu Moskvada, «Açıq innovasiyalar» forumunda imzalanıb. Sənədi qubernator Sergey Morozov, Ümumdünya Külək Energetikası Assosiasiyası yanında Müstəqil Dövlətlər Birliyi ölkələri külək energetikası üzrə komitənin rəhbəri Andrey Koneçenkov və Ulyanovsk nanomərkəzinin baş direktoru Andrey Redkin imzalayıblar.

«Memorandumun əsas məqsədi Ulyanovsk vilayətində külək elektrik stansiyaları üçün külək parkı layihəsinin reallaşdırılması və pərlərin istehsalı zamanı məsləhətçi kimi MDB ölkələrinin külək energetikası üzrə komitəsinin beynəlxalq partnyorlarını cəlb etməkdir», - deyə nanomərkəzin baş direktorunun müavini Oleq Paderin qeyd edib.

Regional hökumət sədrinin müavini Aleksandr Semekalinin sözlərinə görə, müxtəlif profilli təşkilatlarla sıx əməkdaşlıq vilayətin ərazisində külək parklarının yüksək texnologiyalı külək aqreqatları istehsalını yaratmaq və inkişaf etdirmək, həmin sahənin energetika bazarında mövqelərini möhkəmləndirmək, habelə bərpa olunan energetika mənbələri sahəsində işləyən beynəlxalq təşkilatlar və şirkətlərlə qarşılıqlı əlaqələri qaydaya salmaq üçün xüsusi iqtisadi şərait yaratmağa imkan verəcək.

Ulyanovsk nanomərkəzi ULNANOTECN digər partnyorları ilə kooperasiya şəraitində bərpa olunan enerji layihələrinin, o cümlədən külək enerjisinin inteqrasiyası üzrə şirkət yaradır. Birinci iki layihənin reallaşdırılmasına (2015-2017-ci illər) artıq başlanıb. Bu, 250 meqavat gücündə 2018-ci il üçün planlaşdırılan «Zavoljye» sənaye parkı və külək generasiyaedici turbinlərin istehsalı üçün komponentlərin istehsalının lokallaşdırılmasıdır.

## Yaroslavl istehlakçılarının istilik enerjisinə görə 1,1 milyard rubl borcu var

**♦ İstiliyə görə Yaroslavl vilayətində ödəmələr dözülməz həddə çatıb. Noyabr ayında istilik enerjisi istehlakçılarının bütün kateqoriyalar üzrə borcu 1,1 milyard rubldan çox olub, onun da 0,8 milyard rublu idarəedici şirkətlərin payına düşür.**

İstilik generasiya kompleksi (İGK-2) Yaroslavl ərazisində istilik enerjisinin əsas tədarükçüsü kimi vətəndaşları dekabrın 31-dək borclarını ödəməyə çağırıb. Bu, Rusiya Federasiyasının energetika resursları istehlakçılarının ödəmə intizamını möhkəmləndirmək barədəki qanununun qüvvəyə minməsindən sonra xüsuusi əhəmiyyət kəsb etməyə başlayıb.

Yeni norma və qaydalara görə istilik və su təchizatı haqqını vaxtında ödəməyən bütün vətəndaşlar borclu olduğu məbləğdən əlavə yüksək penya da ödəməli olacaqlar. Əgər əvvəllər gecikdirilmiş hər gün üçün tarifin üç yüzdəbiri qədər penya ödənilirdisə, 91-ci gündən sonra bundan 2,5 dəfə çox, yəni 23,1 faiz penya ödəniləcək. İdarəedici şirkətləri isə daha ciddi cərimə gözləyir: rəhbərin işdən çıxarılması, və ya penyanın ilk 30 günü üçün 10 faiz,31 gündən 90 günədək 17,7 faiz, 91 gündən penyanın ödənilməsi gününədək 23,1 faiz. Kommersiya təşkilatları üçün isə penyanın miqdarı (23,1 faiz) gecikdirmənin elə ilk günündən hesablanacaq. Beləliklə, tam aydın olur ki, istiliyə görə borcu nəinki maksimum dərəcədə qısa vaxtda ödəmək, eyni zamanda istilik təchizatı təşkilatlarının müəyyən etdiyi müddətdən artıq gecidirmələrə yol verməmək lazım gəlir.

- Yeni qanun energetika müəssisələrinin sabit işləməsi üçün böyük əhəmiyyət kəsb edir, çünki o, vətəndaşları və bütün istehlakçıları istilik enerjisi haqqını vaxtında ödəməyə səsləyir. Əldə olunan vəsait istehlakçıların fasiləsiz surətdə enerji ilə təchiz edilməsinə yönəldilir, - deyə Verxneuralsk regionu üzrə İGK-nın istilik enerjisi satışı idarəsinin rəisi Denis Korostelyev bildirib. – Gözəl bir ənənə var – Yeni ili borcsuz qarşılamaq! Vətəndaşları cari istehlak haqqını vaxtında ödəməyə çağırırıq. Bu, həm də ailə büdcəsinin qorunub saxlanmasına şərait yaradır.

*ESTONİYA*

## Xidmət işlərini müştərinin əvəzinə konsern yerinə yetirəcək

**♦ «2016-cı ildə biz günəş enerjisi bazasında elektrik və istilik enerjisinin istehsalında bütöv xidmətləri təklif etməyə başlayacağıq», - «Eesti Enerqia» konserni idarə heyətinin üzvü, layihələr, texnologiyalar və biznesin yeni növlərinə cavabdeh olan Marqus Vals belə deyib.**

Onun sözlərinə görə, «Eesti Enerqia» günəş panellərini nə istehsal edəcək, nə də satacaq. Bütöv xidmət göstərmək isə konsern müştərinin əvəzinə icazə almaqdan tutmuş enerjinin çatdırılmasınadək bütün zəruri işləri görəcək.

«Eesti Enerqia»nın energetika forumu iştirakçıları belə nəticəyə gəliblər ki, müstəqil enerji istehsalı üçün yaxın vaxtlarda elə bir şərait yaradılacaq ki, elektrik enerjisi istehsalçısının fəaliyyətinə elektrik istehsalı da daxil olacaq.

«Günəş enerjisi ucuz başa gəlir və biz görürük ki, bir çox ölkələrdə əsaslı dəyişikliklər baş verir. Enerji istehsalı üzrə alternativ yollar istehsal və şəbəkə birləşmələri sahəsində əvvəlki yollarla rəqabət aparır», - deyə Marqus Vals bildirib.

«Eesti Enerqia» konserni tərəfindən təşkil edilən energetika forumu bu il energetika müstəqilliyi mövzusu üzərində cəmləşib və «İnnovativ energetika sanayesi» adlanır. Forumda energetika sənayesinin gələcəyi məsələsini «Eesti Enerqia» şurasının sədri Erkki Raazuke, «Eesti Enerqia» idarə heyətinin sədri Xando Sutter, konsern idarə heyətinin üzvü, layihələr, texnologiyalar və biznesin yeni növlərinə cavabdeh olan Marqus Vals, «Outetes» şirkətinin prezidenti Andreas Ort, Tartu Univeritetinin rektoru Volli Kalm, «Elektrilevi» şirkəti idarə heyətinin sədri Tarmo Mere, «Nord Pool Spot»un bazarlar və əməliyyatlar üzrə diektoru Marianne Verqeland Yenseen və «Eesti Enerqia Enerqiamüük» şirkətinin rəhbəri Karla Aqan müzakirə ediblər.

*TACİKİSTAN*

## SES-in hasilat kəsiri 1,411 milyard kilovat-saat olub

**♦ Sanqtuda Su Elektrik Stansiyasında 2015-ci ilin yanvar-sentyabr aylarında 1 milyard 370,2 milyon kilovat-saat enerji istehsal edilib. Bu, əvvəlki ilin üç rübündəki göstəricidən 0,6 faiz çoxdur.**

Qoyuluş gücündən istifadə əmsalı da əslində 2014-cü il səviyyəsində qalıb.

Elektrik enerjisi istehsalı stansiyanın 2015-ci il üçün nəzərdə tutulan yüklənmə cədvəlinə uyğun həyata keçirilib. Cədvəl isə «Sanqtuda SES-1» ASC və «Barki Tocik» Səhmdar Cəmiyyəti ilə razılaşdırılıb və Tacikistanın Energetika və Su Ehtiyatları Nazirliyi tərəfindən təsdiq edilib.

Suyun məcburiyyət səbəbindən boş-boşuna axıdılması nəticəsində 2015-ci ilin mart ayından sentyabr ayınadək yaranan kəsir 1 milyard 411 milyon kilovat-saat həcmində qiymətləndirilir ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə (1 milyard 067 milyon kVt-s) 32,2 faiz çoxdur.

Hesabat dövründə Sanqtuda SES-1-də əsas və yardımçı avadanlıqların təmiri planı tam həcmdə və müəyyən edilən müddətdə həyata keçirilib, pozuntu hallarına yol verilməyib. 2015-ci ilin avqust-sentyabr aylarında 2 nömrəli hidroaqreqatda əsaslı təmir işləri aparılıb.

Təmir proqramının həyata keçirilməsi stansiyanın ümumi elektrik enerjisi istehsalına təsir göstərməyib.



*LİTVA*

## Bazar dəyişməsinə vaxtında reaksiya gəlirləri artırıb

**♦ «2015-ci ildə «INTER RAO Lietuva» qrupu bazarda baş verən dəyişikliklərə çevikliklə uyğunlaşaraq fəaliyyət göstərib və yüksək qazanc əldə eedib», - deyə «INTER RAO Lietuva»nın baş direktoru Qedrüs Balçünas bildirib.**

«Bununla belə, satışdan əldə olunan gəlirin azalması fonunda Estoniyada və Polşada ticarətin həcmi artıb. Bazarlarda baş verən dəyişikliklərə çevikliklə və vaxtında reaksiya verilməsi qrupun rentabelliyinin 2015-ci ilin üçüncü rübündə də artmasını təmin edib. Bu, həm də satış strukturundakı dəyişikliklərlə, satışla əlaqədar diversifikasiya fəaliyyətinin genişləndirilməsi, qonşu dövlətlərdə onun inkişaf etdirilməsi, habelə risklərin idarə olunması siyasətinin səmərəli surətdə həyata keçirilməsi ilə şərtlənib. Müəssisələrin bütün qrupunun ümumi gəliri 2015-ci ilin yanvar-sentyabr aylarında 5 milyon avrodan çox artaraq, 2014-cü ildəki 8,1 milyon avrodan 2015-ci ildə 13,5 milyon avroya çatıb. Ümumi marja 5,9 faizdən 9,87 faizədək yüksəlib, bir aksiyaya gəlir 0,67 avroya bərabər olub ki, bu da ötənilki göstəricidən 26 avrosent çoxdur», - Qendrüs Balçünas əlavə edib.

2015-ci ilin yanvar-sentyabr aylarında satışdan əldə olunan ümumi gəlir 137 milyon avroya bərabər olub ki, bu da 2014-cü ilin ilk doqquz ayındakı göstəricidən 12,77 faiz azdır. Litvada və Latviyada elektrik enerjisi satışı həcminin azalması, «NordPool» birjasında elektrik enerjisinin ən aşağı qiymətə düşməsi, habelə satılan enerjinin çox ucuz həddə çatması səbəbindən gəlirin həcmi də azalıb. Lakin mənfəətin azalması fonunda Estoniyada, xüsusilə Polşada elektrik enerjisi ticarətinin həcmi artıb.

Elektrik enerjisinin əldə edilməsi və satışından qrupun 2015-ci ilin ilk 9 ayı ərzində gəliri 132,7 milyon avroya bərabər olub. Hasil olunan elektrik enerjisinin satışından əldə edilən mənfəət 4,1 milyon avroya çatıb və bir il əvvəlkindən 18,76 faiz çox olub. Hesabat dövründə «Vydmantai wind park» (UAB) QSC həmişə olduğundan daha çox elektrik enerjisi istehsal edib ki, bu da meteoroloji şəraitin əlverişli keçməsi ilə əlaqədar idi: regionda küləyin sürəti çoxillik orta göstəricidən yüksək olub. Bu isə «Vydmantai wind park» (UAB) QSC-nin fəaliyyətə başladığı 2006-cı ildən əldə etdiyi ən yaxşı nəticədir.

Satışın maya dəyəri cari ilin yanvar-sentyabr aylarında 115,4 milyon avro təşkil edib ki, bu da 2014-cü ilin ilk doqquz ayındakı göstəricidən 18,61 faiz azdır. Satışın maya dəyərinin aşağı düşməsi elektrik enerjisinin satışı həcminin azalması və «NordPool» birjasında və üçüncü ölkələrdə aşağı qiymətə olması ilə izah edilir.

İlin üç rübü ərzində əldə edilən elektrik enerjisinin maya dəyəri 112,4 milyon avroya bərabər olub. Alınan elektrik enerjisinin maya dəyəri satışın bütün maya dəyərinin 97,41 faizini təşkil edib.

2015-ci ilin yanvar-sentyabr aylarında ümumi gəlir 21,4 milyon avro təşkil edib, ümumi marja 15,62 faiz yüksəlib (bir il əvvəl 9,57 faiz olub).

Hesabat dövründə əməliyyat gəliri 16,3 milyon avroya bərabər olub, əməliyyat marjası isə il ərzində 6,65 faizdən 11,95 faizədək yüksəlib.

Təmiz mənfəət hesabat dövründə 13,5 milyon avro təşkil edib, 2014-cü ilin ilk üç rübündə isə bu rəqəm 8,1 milyon avroya bərabər olub. Mənfəət marjası 5,19 faizdən 9,8 faizədək artıb. Gəlirliliyin yüksəlməsi satış strukturunda aparılan dəyişikliklərlə, qrupun inkişafı və satışla bağlı onun bütün ölkələrdə fəaliyyətində fərqlərə ayrılmalar, habelə külək parklarında istehsal edilmiş elektrik enerjisi satışının yüksək nəticələri ilə şərtləndirilib.

*RUSİYA-FİNLANDİYA*

## Enerji sistemlərinin pesrpektiv iş rejimi müəyyən ediləcək

**♦ Helsinki şəhərində «Rosseti» SC və Finlandiyanın «Finqrid Oyi» dövlət enerji sistemi operatoru arasında strateji əməkdaşlığın inkişafına dair saziş imzalanıb.**

Sənədi «Rosseti» SC-nin baş direktoru Oleq Budargin və «Finqrid Oyi»in icraçı direktoru Yukka Ruusunen imzalayıblar.

Saziş çərçivəsində qarşılıqlı surətdə energetika təhlükəsizliyini təmin etmək imkanlarının genişləndirilməsinə xüsusi diqqət ayrılıb.

Tərəflər işçi qrupu yaratmaq niyyətindədirlər. Həmin qrup çərçivəsində Rusiya və Finlandiya enerji sistemlərinin perspektiv iş rejimlərinin haqq-hesabını aparmaq, dövlətlərarası elektrik enerjisi axınının inkişafına dair təkliflər hazırlamaq, habelə elektroenergetika obyektləri tikintisinin və rekonstruksiyasının koordinasiyası planlarını həyata keçirmək nəzərdə tutulub.

Əməkdaşlığın ayrıca istiqamətlərindən biri isə elmi-texniki sahədə təcrübə mübadiləsinin inkişaf etdirilməsi, innovasiya qərarlarının və ən yaxşı təcrübələrin tətbiqi, intellektual şəbəkələrin yaradılmasından ibarətdir.

Tərəflər sazişin reallaşdırılmsı nəticəsində elektrik şəbəkələri infrastrkturlarının səmərəliliyinin, dayanıqlılığının və təhlükəsizliyinin artırılacağına ümidvar olduqlarını bildiriblər.

2014-cü ilin may ayında «Rosseti» SC Rusiya ilə Finlandiya arasında elektrik enerjisinin ikitərəfli şəkildə ötürülməsi sahəsində aparılan sınaqları uğurla başa çatdırıb və bununla da Şimali-Qərb federal dairəsində enerji sisteminin işinin dayanıqlılığının təmin edilməsi üçün avadanlıqların tam hazır olduğunu təsdiqləyib.

Bu vaxtadək enerjinin ötürülməsi yalnız Rusiyadan ixrac istiqamətində aparılırdı.

***Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev***

QƏDİM ŞƏRQ TƏQVİMİ

# 2016 – fəal olanların ili...

**♦ Hər dəfə köhnə təqvim ili sona yaxınlaşanda qarşıdan gələn ilin müjdəsi özünün sirli, sehrli nəfəsi ilə soyuq qış günlərimizi al-əlvan duyğularla bəzəyir. İllərimiz bir-brinə oxşasa da, hər dəfə Yeni ilə böyük ümidlə baxır, ondan möcüzələr gözləyirik. Çoxumuz isə bu gizli naməlumluğun içinə işıq salıb, gələcəyin necə olacağını öyrənmək istəyir. Yəni, Yeni il haqqında astroloqların proqnozu, ulduz falı, qoroskoplarla... maraqlanır.**

Üzümüzə gələn yeni – 2016-cı il Çin təqviminə görə qırmızı Meymun ilidir. Astroloqların proqnozuna görə, Meymun ili daha maraqlı, şən və dinamik keçəcək. Amma bununla yanaşı, 2016-cı ilin qeyri-stabil keçəcəyi, insanların planlarının tez-tez pozulacağı da ehtimal olunur.

Adətən Meymun ilində doğulanlar ağıllı, çevik və zirək olurlar. Onlar öz orijinallıqları ilə fərqlənir, ən mürəkkəb problemləri asanlıqla həll edə bilirlər. Lakin onları işlərindən ayırmaq və fikirlərindən daşındırmaq da mümkündür. Meymun ilində doğulanlar hər işi tez bir zamanda görmək istəyirlər. Bu zaman qarşıya çıxan ən yüngül maneə isə onların əhvallarını korlayıb, planlarını poza bilir. Buna görə də Meymun ilində doğulanların çoxu öz qətiyyətsizlikləri ilə fərqlənirlər. Onlar temperamentli və öz bildiklərini edən, tez qızışan, eyni zamanda, yola gedən insanlardır. Vaxtında qərar qəbul etməyi bacarırlar və sağlam düşüncəyə malikdirlər. Yollarında ciddi manelər olmayanda şöhrət də qazana bilirlər. Ailə üzvlərinə və dostlarına məsləhət verməyi çox sevirlər. Bu insanların ən diqqətçəkən xüsusiyyətləri isə güclü cazibələridir.

Meymun ilində doğulan insanlara ömür-gün yoldaşı kimi uyğun gələnlər Əjdaha və Siçan ilində anadan olanlardır. Onlarla izdivac məsələsində Dovşan, Qoyun, İt və Meymun ilində doğulanlar da məqbul sayılır. Astroloqlar İlan, Qaban və Pələng ilində anadan olanlarla Meymun ilində doğulan insanların izdivacını isə uğursuz hesab edirlər.

Bəs 2016-cı ildə bürcləri hansı uğurlar və ya uğursuzluqlar gözləyir? Bu haqda rusiyalı astroloq Vasilisa Volodina mətbuata açıqlamasında bildirib ki, meymunlar enerjili və dinamik heyvanlardır. Bu ildə kim aktiv olmağa can atsa, 2016-cı il onun ili olacaq. Meymun keçidən daha dərin düşüncəli və hərəkətli olduğu üçün 2016-cı ildə bir yerdə oturmaq lazım deyil. Mütləq aktiv hərəkət etmək, çalışmaq lazımdır. Gələn il kim öz uğuru və karyerası üçün can atsa, qazanacaq.

Vasilisa Volodina bildirib ki, gələn il Qoç bürcünün nümayəndələri üçün harmoniya və sabitlik gözlənilir. Amma ifratlardan da uzaq olmaq məsləhətdir. İş fəaliyyətində yaxşılığa doğru mühüm dəyişikliklər olacaq. Şəxsi həyatda sakitlik, ilin sonuna yaxın isə böyük mənfəət gözlənilir. Gələn il Qoç bürcündə doğulanların sağlamlığı da yaxşı olacaq.

Rusiyalı astroloq Buğa bürcündə doğulanlara işlərində böyük yüksəlişlər və mükafatlar vəd edir. Eyni zamanda, sağlamlığa və düzgün qidalanmaya da diqqət göstərməyi məsləhət görür. Buğa bürcündə doğulanların şəxsi həyatlarında münasibətlərin düzələcəyi gözlənilir.




Astroloq Əkizlər bürcündə doğulanlara ailə münasibətlərinə diqqəti artırmağı məsləhət bilir. Qeyd edir ki, yeni ildə gəlirlərin və karyeranın yüksəlişi gözlənilir. Lakin tənha "əkizlər" tale yoldaşlarını tapmaqda çətinlik çəkəcəklər.

Xərçəng bürcündə doğulanlara isə yeni ildə çox işləməli olacaqları bildirilir. Amma onlar ilin sonunda çəkdikləri əziyyətin bəhrəsini görəcəklər. Subay "xərçənglər" öz yarlarını tapacaqlar.

Şir bürcündə doğulan insanlar isə yeni ildə heç əziyyət çəkməyəcəklər, onların peşə ilə bağlı fəallıqlarına da maneə yaranmayacaq. Hər bir iş onlara zövq verəcək və nəticəsi yaxşı olacaq. Amma çılğınlığı gələn il bir kənara qoymaq lazımdır. Çünki bilmədən səhvlərə yol verə bilərlər.

Qız bürcündə doğulanlar da bu il çox çalışmalı olacaqlar. İşdə yeni əlaqələr və tanışlıqlar yaranacaq. Romantika və şəxsi həyat dərinləşəcək. 2016-cı ilin ikinci yarısı daha çox şans vəd edir. Həssas insanlar stresdən uzaqlaşmaq üçün istirahətdən yayınmamalıdırlar.

2016-cı il "tərəzilər" üçün uğurlu il olacaq. Onların karyeralarında bir-iki pillə yüksəliş gözlənilir. Şəxsi həyatda isə Meymun ili yeni heç nə vəd etmir. Maddi vəziyyət yaxşılaşacaq, sevgi isə ikinci plana keçəcək. Subay "tərəzilər" taleləri üçün ilin sonunda axtarışa çıxsalar, yaxşıdır. Ailəlilərin isə bəxti gətirib, ilin sonuna kimi sakitlik olacaq. Özünü yaxşı hiss etdiyinə görə, il boyu gümrah olacaqlar.

Gələn il Əqrəb bürcündə doğulan insanların həyatında çoxlu dəyişikliklər gözlənilir. Onlar əvvəldən nəzərdə tutulan planlarını israrla gerçəkləşdirməyə çalışmalıdırlar. Əgər aktiv olsalar, çox şeyə nail olacaqlar.

Yeni il "Oxatanlara" karyerada yüksəliş vəd edir. Onlar zəhmətləri sayəsində öz işlərindən zövq alacaqlar. Ailə münasibətləri rəvanlaşacaq. "Oxatanlar"ın maliyyə ehtiyacı olmayacaq.

Oğlaq bürcündə doğulanlara gələn il əmin-amanlıq və dinclik gətirəcək. Subay oğlaqlar öz yarlarını ilin axırına kimi tapacaqlar. İstirahətə də vaxt ayırmaq lazımdır. Yoxsa, gərgin iş rejimi "oğlaqlar"a əsəb və narahatçılıq verəcək.

"Dolçalar" enerjili və aktiv olacaqlar. İşdə yaxşılığa doğru dəyişikliklər gözlənilir. Məqsədə doğru getmək lazımdır. Çünki uğurla nəticələnəcək. Tərəfdaşla münasibət yüksələcək. Sağlamlıqda əsasən əsəb sistemini qorumaq lazımdır. Bu il ulduzlar zərərli yağlı qidalar və spirtli içkilərdən uzaq durmağı məsləhət görürlər.

"Balıqlar"ı sakitlik gözləyir. İşlərinə dəstək olunacaq. Ailə bağlantılarında möhkəmlik, sabitlik hökm sürəcək. Subay "balıqlar"ın bu il yarlarını tapmaqda yüksək şansları olacaq. Onlar Meymun ilində qidalarına diqqət etməli, düzgün həyat rejiminə və idmana yer verməlidirlər. "Balıqlar" bu il yaxşı istirahət edərlərsə, bol uğur qazanacaqlar.

Deyirlər bayramı, xüsusilə də Yeni ili necə qarşılayırsansa, həmin il də o cür keçəcək. Bu inancın nə dərəcədə doğru olub-olmadığını heç kim dəqiq müəyyənləşdirə bilməsə də, hamı Yeni ilə ciddi hazırlaşır, küknar ağacının bəzədilməsindən tutmuş, bayram süfrəsinə, geyiminə qədər hər şeyə xüsusi diqqətlə yanaşır.

Bu mənada astroloqlar Yeni il geyiminin vacibliyini də vurğulayırlar. Bildirilir ki, (xüsusilə zərif cinsin nümayəndələrinə) 2016-ci ildə bol-bol uğur əldə etmək istəyirsinizsə, ilk öncə bayram axşamı nə geyinəcəyinizə diqqət yetirməlisiniz. Qarşıdan gələn qırmızı Meymun ilinin inanclarına görə, bayram gecəsi mütləq yeni və yaraşıqlı libas geyinmək lazımdır.

**Sadıq QARAYEV**

*Maliyyə Nazirliyi:*

## Pensiya və müavinətlər artırıla bilər

**♦ Manatın məzənnəsinin enməsi ilə bağlı olaraq, 2015-ci ilin dövlət büdcəsinin icrasında hər hansı problem gözlənilmir.**

Bu barədə Trend-in sorğusuna cavab olaraq, Maliyyə Nazirliyinin mətbuat katibi Mais Piriyev bildirib.

M.Piriyev deyib ki, 2016-cı ilin dövlət büdcəsinin tərtibi zamanı büdcə gəlirlərinin, habelə büdcə xərclərinin (xarici valyutada ifadə edilmiş) hesablanması zamanı isə manatın fərqli mübadilə məzənnəsinin istifadəsi ilə əlaqədar gələn ilin dövlət büdcəsinə müvafiq düzəlişlərin edilməsi məsələsinə hal-hazırda baxılır.

Bu zaman neftin qiymətinin dövlət büdcəsinin gəlirlərinin hesablanması üçün götürülmüş qiymətindən daha aşağı səviyyəyə enməsi amili də nəzərdən keçiriləcək.

2016-cı ilin dövlət büdcəsinə dəyişikliklərin aprel-may aylarında reallaşdırılması ehtimal olunur.

Eyni zamanda bildiririk ki, manatın məzənnəsinin enməsinin ölkənin istehlak bazarlarındakı qiymətlərə mənfi fəsadları olacağı təqdirdə, gündəlik tələbat mallarının infilyasiya səviyyəsinə uyğun olaraq əhalinin sosial baxımdan həssas qruplarına (o cümlədən, aztəminatlı ailələrə, təqaüdçülərə, sağlamlıq imkanları məhdud olan şəxslərə, tələbələrə və digər sosial ödənişlər alan əhali qruplarına) verilən ödənişlərin müvafiq indeksləşdirilməsi həyata keçiriləcəkdir.

NƏQLİYYAT

## Lisenziyalar ləğv edildi

**♦ Prezident İlham Əliyevin lisenziyalarla bağlı imzaladığı fərmana əsasən, nəqliyyat sahəsində lisenziyalar ləğv olundu. Lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri də təsdiq edildi. Bu siyahıda sərnişindaşıma və yükdaşıma ilə bağlı lisenziyalar yer almayıb. O cümlədən lisenziya verilməsi üçün tələb olunan şərtlər sadələşdirilir və təkmilləşdirilir.**

Bəs bu, sadə insanlara nə fayda verəcək? Dolların kəskin bahalaşması, manatın üzən məzənnəyə keçməsi fonunda bu, hansı müsbət tendesiyaya yol aça bilər?

ANS PRESS bunu müəyyən etməyə çalışıb.

Nəqliyyat sahəsi üzrə ekspert Ərşad Hüseynov imzalanan fərmanın son devalvasiyaya heç bir bağlılığının olmadığını deyir. Onun sözlərinə görə, bu barədə fikir hələ sentyabr ayından var idi.

"Amma belə bir vaxtda imzalanmasına, həqiqətən, ehtiyac var idi. Müəyyən sahibkarlıq fəaliyyəti ilə məşğul olanların işi asanlaşacaq. Məqsəd odur ki, vətəndaşlar taksi, yükdaşıma, sərnişindaşıma fəaliyyəti ilə rahat şəkildə məşğul olsunlar, kiminsə qapısını döyməsinlər. Yəni bu fəaliyyətlə məşğul olanlar rahat çörək qazana bilsinlər".

Ekspert onu da əlavə etdi ki, nəqliyyat sahəsinə lisenziyanın ləğvi həm də cəmiyyətin nəqliyyata olan ehtiyacını ödəyə bilər.

Lakin lisenziyaların ləğvi o demək deyil ki, kim istədi bu fürsətdən istifadə edəcək. "Qanunla nəzərdə tutulmuş bir sıra şərtlər var ki, onlara riayət etmək lazımdır", - deyə Ə.Hüseynov bildirib.

Ölkə başçısının lisenziya ilə bağlı imzaladığı son fərmanın da devalvasiya fonunda bir çox sürücülərin ürəyincə olacağı gözlənilir. Çünki iş yerlərinin bağlanması və ixtisarların artması nəticəsində çətinlik yaşayan ərəfədə atılan bu addım, həqiqətən, alqışa layiqdir.

Bu həm taksi fəaliyyəti ilə məşğul olmaq istəyənlərdə vaxt itkisinin qarşısını alacaq, həm də bu fərman sayəsində lisenziya almaq üçün 150 manat ödəməyə ehtiyac olmayacaq.



ASTROLOJİ PROQNOZ

## HƏFTƏLİK ULDUZ FALI

**QOÇ**

Kifayət qədər uğurlu həftədir. Planlarınızın əksəriyyəti müsbət müstəviyə yaxınlaşacaq. İşlə bağlı əsaslı dönüşə nail olmaq istəyirsinizsə, nüfuzlu şəxslərlə əlaqələri dərinləşdirin.

**BUĞA**

Ulduzların düzümü bu günlər ovqatınızın xoş olacağını bildirir. Əgər vaxt tapıb müqəddəs ziyarətgahlara baş çəksəniz, daxili sıxıntılarınız da səngiyəcək.

**ƏKİZLƏR**

İştirakçısı olduğunuz hadisələri özünüzdən yaxşı analiz edən yoxdur. Deməli, həftə ərzində külli-ixtiyar öz əlinizdə olacaq. Ulduzlar əksər sahələrdə müdafiənizdə duracaq.

**XƏRÇƏNG**

Bu günlər gərginliklə baş-başa qalacaqsınız. Ola bilsin ki, ünsiyyətdə olduğunuz bəzi şəxslərlə mübahisələrə də cəlb olunasınız. Bu səbəbdən «qatığa ağ deməyə» çalışın.

**ŞİR**

Yaxşı olar ki, bütün vaxtınızı adi işlərin həllinə yönəldəsiniz. Hər hansı risk və ya yeni iş uğursuzluqla nəticələnəcək. Pul sövdələşmələrindən isə ümumiyyətlə kənar durun.

**QIZ**

İşgüzar sövdələşmələr üçün ideal vaxtdır. Çalışın ki, müsahiblərinizin ədalətli rəyi ilə hesablaşasınız. Yalnız bu halda perspektivli gələcək barədə düşünməyə dəyər.

**TƏRƏZİ**

Müəyyən məsələlərdə özünüzü aldatmayın. Sözlə deyil, əməllərinizlə özünüzə qarşı rəğbət oyadın. Göy qübbəsi bu günlər qarşınıza yeni və xeyirxah adamlar çıxaracağını bildirir.

**ƏQRƏB**

Lovğalıq, özündənrazılıq və hər şeyə qərəzli yanaşmaq sizə başucalığı gətirən deyil. Odur ki, ətrafda olanlarla mülayim və səmimi davranmağa çalışın.

**OXATAN**

Ayın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər fəaliyyətdə, istər qarşılıqlı münasibətlərdə, istərsə də məhəbbət müstəvisində işləriniz qənaətbəxş olacaq. Özünüzə inanın.

**OĞLAQ**

Hiss olunur ki, insanlar yavaş-yavaş sizi başa düşməyə meyl edir. Deməli, daxilinizi narahat edən ideyaları açıqlamaq olar. Bu günlər yalnız Tanrıya xoş gedən hərəkətlər edin.

**DOLÇA**

Əsas deviziniz müqəddəs Avestada göstərilən «Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl» olmalıdır. Bu günlər Ali Həqiqətə çatmaq üçün məhz bu üç prinsipə söykənməlisiniz.

**BALIQLAR**

Ulduzların düzümü bu təqvimdə mübahisəli situasiyalara cəlb olunacağınıza işarə edir. Özünüzü qoruyun, çılğınlığınızı cilovlayın. Günlərinizi bütünlüklə sevgiyə həsr edin.

***Hazırladı: Afət Manafova***

"Azərenerji" ASC-nin kollektivi "Azərbaycan işıqları" qəzetinin əməkdaşı **Məhəmməd Əhmədova,** atası

**ƏHMƏD KİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN.**

FUTBOL

## Birinci dövrə başa çatdı: "Qarabağ" vahid liderdir

**♦ Dekabrın 19-da futbol üzrə Topaz Premyer Liqasının XVIII turuna start verilib.**

İkinci dövrənin son turunun ilk qarşılaşmasında "Sumqayıt" komandası "Kapital Bank Arena"da "Rəvan"ı qəbul edib. Qarşılıqlı hücumlar şəraitində keçən oyun 3:3 hesabı ilə başa çatıb.

Turun mərkəzi oyununda - "Qarabağ"-"Qəbələ" qarşılaşmasında da qalib müəyyənləşməyib. Hesabı "Qəbələ" komandası 4-cü dəqiqədə açsa da, 79-cu dəqiqədə "Qarabağ" oyunda tarazlığı bərpa edib. Qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb.

Dekabrın 20-də turun üç oyunu keçirilib. "Kəpəz" "Neftçi"ni, AZAL "Zirə"ni qəbul edib. "Xəzər Lənkəran" isə Bakıda "İnter"in qonağı olub.

Gəncə şəhər stadionunda gərgin idman mübarizəsi şəraitində keçən görüşdə qalib müəyyənləşməyib – 1:1. Görüşün 14-cü dəqiqəsində "Kəpəz"in oyunçusu Tərlan Quliyev hesabı açıb. 47-ci dəqiqədə Cavid İmamverdiyevin vurduğu qolla "Neftçi" hesabı bərabərləşdirib.

AZAL-la "Zirə" arasında qarşılaşma meydan sahibinin minimal hesablı qələbəsi ilə başa çatıb – 1:0.

Turun və həm də ilin son oyunu "İnter Arena"da keçirilib. Meydan sahibləri "İnter" "Xəzər Lənkəran"ı qəbul edib. Qış fasiləsinə ilk üçlükdə yollanmağı hədəfləyən paytaxt təmsilçisi dövrəni qələbə ilə yekunlaşdırıb. "İnter" rəqibini iki cavabsız qolla məğlub edib – 2:0.

**TURNİR CƏDVƏLİ**

| Y | Klublar | O | Q | H | M | T-f | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qarabağ | 18 | 11 | 5 | 2 | 28-12 | 38 |
| 2 | İnter | 18 | 8 | 6 | 4 | 18-12 | 30 |
| 3 | Zirə | 18 | 7 | 8 | 3 | 16-13 | 29 |
| 4 | Qəbələ | 18 | 7 | 7 | 4 | 24-13 | 28 |
| 5 | Kəpəz | 18 | 6 | 8 | 4 | 19-17 | 26 |
| 6 | Neftçi | 18 | 6 | 6 | 6 | 19-18 | 24 |
| 7 | AZAL | 18 | 6 | 4 | 8 | 11-17 | 22 |
| 8 | Sumqayıt | 18 | 3 | 9 | 6 | 23-28 | 18 |
| 9 | Xəzər Lənkəran | 18 | 3 | 3 | 12 | 10-24 | 12 |
| 10 | Rəvan | 18 | 2 | 6 | 10 | 12-26 | 12 |



Birinci dövrənin lideri: "QARABAĞ"

BANK XİDMƏTİ

## "Expressbank" adi iş rejimində müştərilərə xidmət göstərməkdə davam edir

**♦ "Expressbank" müştərilərə adi iş rejimində xidmət göstərməkdə davam edir. Bankdan Trend-ə verilən məlumata görə, müştərilər "Expressbank" filiallarına müraciət etməklə, müxtəlif bank xidmətlərindən yararlana bilərlər.**




Qeyd edək ki, "Expressbank" müştərilərə geniş çeşiddə bank xidmətləri təklif edir: hesablaşma-kassa əməliyyatları, əmanətlərin qəbulu, biznes, istehlak və ipoteka kreditlərinin verilməsi, bank kartları, təcili pul köçürmələri və s.

"Expressbank"ın xidmət şəbəkəsi 18 filialdan ibarətdir. Onlardan 12-si Bakı və Sumqayıt şəhərlərində, 6-sı isə ölkənin Gəncə, Mingəçevir, Bərdə, Qusar, Xaçmaz və Şirvan şəhərlərində yerləşir. Bankın ölkə üzrə 90-dək bankomat, 7500-dək POS terminal və 400-dək ExpressPay ödəniş terminalı vardır.

Bank xidmətləri barədə ətraflı məlumat üçün 132 Məlumat Mərkəzinə zəng edə, www.expressbank.az saytına və ya Bankın rəsmi Facebook səhifəsinə www.facebook.com/Expressbank daxil ola bilərsiniz.

SAĞLAMLIQ

## Qaraciyərin sadə üsullarla təmizlənməsi

**♦ Qaraciyər insan orqanizmi üçün həyati vacib orqanlardan biridir. Tək bir faktı qeyd etmək yetərlidir ki, qaraciyər orqanizmdə 500-dən artıq funksiyanı yerinə yetirir. Onlardan ən əsaslarından biri isə qaraciyərin orqanizmə daxil olan qida, su və havanın tərkibində olan zərərli maddələrdən təmizləməsi, süzgəcdən keçirməsidir.**

Aydın məsələdir ki, qəbul etdiyimiz qidalarda, suda və havada kifayət qədər zərərli maddələr var. Məhz qaraciyər bu maddələri zərərsizləşdirmək üçün çalışır və qanın təmizlənməsini təmin edir. Təbii ki, təmiz qan orqnizmin sağlam olması üçün əsas amillərdən biridir. Elə bu səbəbdən də qaraciyərin qayğısına qalmaq, onun fəaliyyətini yaxşılaşdırmaq üçün bu orqanın vaxtaşırı təmizlənməsinə xüsusi diqqət yetirmək lazımdır.

Modern.az saytında təqdim olunan məsləhətlər qaraciyəri qorumaq üçün faydalıdır.

Qaraciyərin təmizlənməsindən sonra orqanizmdə nələr baş verir, insan hansı dəyişiklikləri hiss edir?

1. İlk növbədə insan səhhətində nəzərəçarpacaq dərəcədə müsbət irəliləyişlərin şahidi olur.

2. Baş ağrıları aradan qalxır, nəfəsalma asanlaşır, tez-tez baş verən soyuqdəymə halları bir daha təkrarlanmır.

3. Dəri sağlam görünüşə malik olur, hamarlanır, sızanaqlar və cizvələr yox olur.

4. Göz ətrafında olan qara ləkələr, gözün içindəki sarımtıl rəng çəkilir.

5. Qaraciyərin təmizlənməsi orqanizmin ümumi qocalma prosesini ləngidir.

6. Bu təmizlənmə ümumilikdə həm xarici görünüşə, həm də daxili orqanlara müsbət təsir göstərir.

Bəs qaraciyərin təmizlənməsini necə həyata keçirməli?

*1-ci üsul:*

200 qram yerkökü, 60 qram cəfəri, 150 qram kərəvizin şirəsi çəkilir və qarışdırılır. 1 ay ərzində səhərlər acqarnına qəbul edilir.

*2-ci üsul:*

Yarım stəkan pomidor şirəsi ilə yarım stəkan kələm şirəsi qarışdırılır, 2 həftə ərzində gündə 3 dəfə yeməkdən sonra qəbul edilir.

*3-cü üsul:*

100 qram bal, 500 qram qıtıqotu (xren) və 1 litr su qarışdırılır, bir sutka ərzində qaranlıq və soyuq yerdə saxlanılır. Gündə 3 dəfə yeməkdən qabaq 1 xörək qaşığı qəbul edilir.

*4-cü üsul:*

Qaraciyərin təmizlənməsi üçün 2 həftə ərzində səhərlər acqarnına bir çay qaşığı zeytun yağını ağız boşluğunda çalxalamaq, yağ durulaşandan, süd rənginə çevriləndən sonra ağızdan xaric etmək lazımdır. Bu, təxminən 15-20 dəqiqə vaxt tələb edir.

*5-ci üsul:*

15 dənə saplaqlı cəfərini elektrik üyüdücüdə (blender) tam əzmək, yarım stəkan suda qarışdırmaq və üzərinə yarım limonun şirəsi əlavə edilməlidir. Səhərlər yeməkdən yarım saat əvvəl 15 gün ərzində qəbul edilir.

Göründüyü kimi, qaraciyərin təmizlənməsi üçün bu üsullar olduqca az vəsait və az vaxt tələb edir. Təkcə o qalır ki, bunlara əməl edib yükümüzü çəkən, bizi zərərli maddələrdən, toksinlərdən qoruyan qaraciyərimizin qayğısına qalaq.

Əgər bu sadə üsullardan istafadə etmək istəsəniz həkimlə məsləhətləşməyi unutmayın.

## Yara təmizləmək üçün... duzlu su yaxşıdır

**♦ Açıq sınıqlara tibbi yardım göstərilməsi və infeksiyaların profilaktikası prosesində bir çox elmi nailiyyətlərə imza atılıb, amma standart praktika - əməliyyatdan əvvəl yaranın sabunlu su ilə təmizlənməsi dəyişməyib.**

Kanadanın MakMaster Universitetinin alimlərinin başçılıq etdiyi beynəlxalq tədqiqatçılar qrupu açıq yaraların sabun və su ilə yuyulmasının duzlu su ilə yuyulması ilə müqayisədə bir o qədər də səmərəli olmadığını aşkar edib.

Mohit Bhandarinin başçılıq etdiyi qrup açıq əl və ayaq sınıqları olan 2400 adamı müayinə edib. Onların yaraları ya sabunlu su, ya da duzlu məhlulla yuyulub, suyun təzyiqi isə müxtəlif səviyyədə olub. Tədqiqatçılar müəyyən ediblər ki, çox aşağı təzyiqli su açıq sınıqları yumaq üçün məqbul və ucuz alternativdir. Sabundan istifadə olunan qrupda təkrar əməliyyatların sayı daha çox olub.

M.Bhandari deyib: "Sümük sınıqları olan ciddi yaralardan çirki və zibili təmizləmək üçün hansı üsulun daha yaxşı olması barədə çox mübahisələr olub. Təcrübə göstərir ki, yaranın sabunlu su ilə təmizlənməsi adi su ilə yuyulmasından heç də səmərəli deyil".

Eksperimentin həmmüəllifi Edvard Harvey əlavə edib: "Bu məlumatlar bütün dünyada, xüsusən, belə halların daha çox müşahidə olunduğu inkişaf etməkdə olan ölkələrdə açıq sınıqları olan pasiyentlərin müalicəsi üçün böyük əhəmiyyət kəsb edir. Biz yaranı təmizləmək üçün vaxtımızın çoxunu sabun və sudan istifadəyə sərf edirdik, amma daha bunu etmirik".

Tədqiqatda Birləşmiş Ştatların 41 regionundan, Kanada, Avstraliya, Norveç və Hindistandan pasiyentlər iştirak ediblər. Onların çoxu yaşı 40-ı ötən kişilər olub.

Tədqiqatçılar əlavə ediblər ki, onların nəticələri yol-nəqliyyat hadisələrinin tez-tez baş verməsi səbəbindən açıq sınıqların payının yüksək olduğu aşağı və orta gəlirli ölkələr üçün xüsusilə aktualdır.

*Təsisçi:* **"Azərenerji" ASC**
*Naşir:* **"Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC**

*Baş redaktor:* **Elşən ƏLİYEV**



***Redaksiyanın ünvanı:*** AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
***Telefonlar:*** (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

"Azərbaycan işıqları" qəzetinin kompüterlərində yığılıb səhifələnir, **"CBS polygraphic production"** mətbəəsində çap olunur. Tiraj: 2000

Çapa imzalanıb:
23 dekabr 2015-ci il, saat 18.00.
*Məsul növbətçi:* **S.QARAYEV**